# İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyəti alqışlanılır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də İtaliyanın "La Repubblica" qəzetinə verdiyi müsahibənin əvvəlində hazırda işğaldan azad edilən ərazilərdə mövcud vəziyyətə toxunaraq, müharibənin başa çatmasından sonra ötən bir il ərzində Rusiya sülhməramlılarının təmas xəttində–Qarabağ bölgəsində yerləşdiyini, bu müddətdə bəzi xırda insidentlər istisna olmaqla, vəziyyətin sabit qaldığını diqqətə çatdırıb.**

Dövlətimizin başçısı daha sonra deyib: "Əlbəttə, həllini gözləyən müəyyən məsələlər qalmaqdadır. Xüsusən də, hazırda Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan ərazilərimizə səfər etmək üçün Azərbaycandan icazə almalı olan əcnəbilər məsələsi var. Qarabağa səfər edən dırnaqarası turistlərin sayı kəskin şəkildə azalsa da, bəzi əcnəbilər hələ də bizim ərazimizə, Rusiya sülhməramlılarının olduğu yerlərə qanunsuz daxil olurlar. Bu məsələ Rusiyanın səlahiyyətli orqanlarının, Müdafiə Nazirliyinin diqqətinə çatdırılıb ki, buna son qoyulsun. Bu və bəzi digər məsələlər öz həllini tapmalıdır. Ancaq hazırda biz onların fəaliyyətindən, ümumilikdə, razıyıq".

Dövlətimizin başçısı müsahibədə jurnalistin düşməndən təmizlənən ərazilərə investisiya qoyulması ilə bağlı sualını da cavablandırıb. Ölkə rəhbəri artıq o torpaqlara sərmayə yatırımı istiqamətində xeyli iş görüldüyünü, bu məsələnin yüksək səviyyədə gerçəkləşməsi məqsədilə xüsusi investisiya proqramının qəbul edildiyini də diqqətə çatdırıb. Prezident İlham Əliyev, eyni zamanda, cari il üçün nəzərdə tutulmuş məbləğin, təqribən, 1,3 milyard ABŞ dolları təşkil etdiyini, investisiyanın, əsasən, infrastruktur layihələrinin icrasına yönəldildiyini, həmçinin ilin sonunadək sahəsi 10 min kvadratkilometrə bərabər olan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təminatının tam başa çatdırılacağının nəzərdə tutulduğunu vurğulayıb.

Prezident İlham Əliyev daha sonra düşməndən təmizlənən torpaqlarda hazırda avtomobil və dəmir yollarının inşa edildiyini də qeyd edərək, bildirib: "Azad olunmuş ərazilərdə, Füzulidə yerləşən yeni hava limanı hazırdır. Artıq o, ilk təyyarələri qəbul edib. Biz onu səkkiz aya inşa etmişik. Daha iki hava limanının inşası davam edir. Bununla yanaşı, biz artıq yaşayış binalarının tikintisi layihələrinə başlamışıq. İki şəhərin baş planı təsdiq edilib və işlərə start verilib. Yəni biz işlərə çox fəal başlamışıq və planımız keçmiş məcburi köçkünlərin doğma evlərinə ən qısa zamanda qaytarılmasıdır".

Jurnalistin "İtaliyanın yenidənqurma işlərinə cəlb edilməsi nəzərdə tutulurmu və ya İtaliya artıq bu işlərdə iştirak edirmi?" sualına cavabında isə dövlətimizin başçısı İtaliyanın Azərbaycanın dəvəti ilə bərpa-quruculuq işlərinə ilk qoşulan ölkələrdən biri olduğunu xatırladıb.

Yeri gəlmişkən, qeyd edilən iki dövlətdən birincisi Türkiyədir. Vətən müharibəsinin Azərbaycanın qələbəsi ilə yekunlaşmasında qardaş ölkənin rəhbəri Rəcəb Tayyib Ərdoğanın və digər dövlət və hökumət rəsmilərinin mənəvi və siyasi dəstəyi böyük rol oynayıb. Savaş dövründə Türkiyə xalqının və mətbuatının diqqəti xüsusi əhəmiyyət daşıyıb. İşğaldan azad olunmuş torpaqlarımızın bərpasında da Türkiyə dövləti və şirkətlərinə mühüm önəm veriləcəyi əvvəlcədən bildirilib.

*(ardı 6-cı səhifədə)*

# İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyəti alqışlanılır

*(əvvəli 1-ci səhifədə)*

Hazırda Türkiyə düşməndən azad olunan ərazilərimizin həm minalardan təmizlənməsində, həm də təmizlənmə üçün təlimlərin keçirilməsində iştirak edir, yaşayış sahələrinin bərpa prosesində fəallıq göstərir. Şuşaya yolun çəkilməsi üçün ilk müqavilənin qardaş ölkə ilə bağlanması da bunun bariz ifadəsidir. Azərbaycanla dostluq və strateji tərəfdaşlıq səviyyəsində olan dövlətlərdən biri də İtaliyadır. Avropa İttifaqının üzv ölkələri arasında İtaliya respublikamızın bir nömrəli siyasi, iqtisadi və ticarət tərəfdaşıdır.

Xatırladaq ki, son illər ərzində ölkəmizlə imzalanmış sənədlər sırasında "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" müstəsna əhəmiyyət daşıyır. Bu bəyannamə Azərbaycanın digər ölkələrlə, o cümlədən, "Böyük Yeddiliyin" və Avropa İttifaqının üzvü olan ölkə kimi İtaliyanın imzaladığı ilk sənəddir.

Vətən müharibəsi başa çatandan sonra parlament və hökumət səviyyəsində Azərbaycana nümayəndə heyəti göndərən ilk Avropa ölkəsi də məhz İtaliya oldu. Prezident İlham Əliyev ötən il dekabrın 9-da İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin Dövlət katibi Manlio Di Stefano ilə görüşdə daha çox İtaliya şirkətinin Azərbaycanda fəaliyyətinə, xüsusilə işğaldan azad olunmuş ərazilərdə həyata keçiriləcək yenidənqurma, bərpa və infrastruktur layihələrinə cəlb edilməsinə dəstəyini xüsusi vurğuladı.

Azərbaycan Respublikasının Prezident İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə verdiyi müsahibədə də yuxarıda qeyd edilən məqamlara əsaslanaraq, deyib: "İlk ölkə Türkiyədir, ikincisi isə İtaliyadır. Bu, təsadüfi deyil. Bu, bizim seçimimiz idi. Mən demişdim ki, biz Böyük Qayıdışla bağlı yenidənqurma layihələrinə yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Bir neçə italyan şirkəti artıq müxtəlif layihələrdə, o cümlədən, Zəfər muzeylərinin, Memorial muzeylərin və İşğal muzeylərinin yaradılmasında iştirak edir. Artıq bir italyan şirkəti bir bölgənin enerji təminatı məsələsi ilə bağlı bizimlə müqavilə imzalayıb. Bundan əlavə, digər italyan şirkəti kənd təsərrüfatı məhsullarının istehsalına sərmayə yatırmağa başlayıb. Beləliklə, italyan şirkətlərinin Azərbaycanda fəaliyyəti alqışlanılır və bu yenidənqurma işlərində daha çox italyan şirkətləri olacaq".

"La Repubblica" qəzetinin jurnalistinin "Avropada qazın qiymətində ciddi artım var. Trans–Adriatik qaz kəmərinin qiymətin müəyyən dərəcədə aşağı səviyyədə saxlanılmasında rolu ola bilər. Həmin boru xətti ilə bağlı hansı yeni imkanlar var?" sualına cavabında isə dövlətimizin başçısı bildirib ki, Azərbaycan hazırda əsas diqqəti Cənub Qaz Dəhlizinin sonuncu hissəsi olan Trans–Adriatik boru xəttinin başa çatdırılmasına yönəldib. Ötən ilin sonuncu günü – dekabrın 31-də ilk qazın Avropaya nəqli reallaşıb və bununla da İtaliya Azərbaycandan qaz qəbul etməyə başlayıb. "Cənub Qaz Dəhlizi İtaliya bazarını 8 milyard kubmetr və hətta bundan da artıq həcmdə qazla təmin edəcək. Yəni, bu iş artıq başa çatdırılıb. İndi isə biz gələcəyə baxmalıyıq, çünki biz yeni qaz yataqları kəşf etmişik. Bununla yanaşı, mövcud yataqlardan da daha çox qaz hasil etməyi planlaşdırırıq. Həmçinin xarici investorlarla bərabər yenilənən enerji mənbələrinə böyük sərmayə qoyuruq",-deyə Prezident İlham Əliyev bildirib.

Ölkə Prezidenti müsahibədə Əfqanıstanın yeni hökuməti ilə bağlı sualına cavabında Azərbaycanın xarici siyasətinin başlıca prinsipinin müstəqillik olduğunu xatırladaraq, xarici siyasətimizdə tamamilə hər hansı xarici hökmranlıqdan azad yönlülüyə, praqmatikliyə xüsusi önəm verildiyini, mövqeyimizin məhz bu əsasda formalaşdığını vurğulayıb.

Dövlətimizin başçısı, yuxarıda qeyd edilənlərlə bərabər, Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişelin bu yay Azərbaycana səfəri zamanı Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının geniş gündəliyi ilə bağlı ətraflı müzakirələr aparıldığını da diqqətə çatdırıb: "Bu gün Avropa İttifaqı bizim nəqliyyat potensialımıza böyük maraq göstərir və bu sahədə fəal iştirak edir. Çünki biz Azərbaycanı Avrasiyanın müasir infrastruktura və qonşularla şaxələndirilmiş kommunikasiya marşrutlarına malik mühüm nəqliyyat mərkəzinə çeviririk. Avropa İttifaqı bu prosesin bir hissəsi olmağı planlaşdırır. Biz, həmçinin Cənubi Qafqazda postmüharibə dövrünün inkişafında da Avropa İttifaqının rolunu müzakirə edirik".

Prezident İlham Əliyev müsahibənin sonunda son vaxtlar Azərbaycanın qonşu İranla münasibətlərində nəzərə çarpan müəyyən problemlərin mövcudluğuna da ətraflı aydınlıq gətirib.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 15 oktyabr.- S.1;6.